Məktəblə tanış olduqdan sonra moldovalı qonaqların məktəbin pedaqoji kollektivi və şagirdləri ilə görüşü keçirilib.

Görüşdə məktəbin direktoru Azər Ələkbərov Azərbaycanda həyata keçirilən işlər, prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təhsilə qayğısı və göstərdikləri diqqət barədə danışıb.

Moldovalı ombudsmanın Azərbaycanın haqq işinin müdafiə etməsini xatırladan görüş iştirakçıları təcavüzkar Ermənistan dövlətinin yalanlarının dünyaya yayılmasına dəstəyini yüksək qiymətləndiriblər.

Aureliya Qriqoriu işğal olunmuş Azərbaycan ərazilərində soyqırım hadisələri törədən erməni silahlılarının və onların havadarlarının tezliklə ədalət mühakiməsində cavab verəcəklərinə inamını ifadə edib. Erməni terrorçularının vəhşiliklərindən danışan moldovalı ombudsman bəyan edib ki, ermənilərin törətdikləri cinayətlərə, xüsusilə Xocalı soyqırımına beynəlxalq hüquqi qiymət verilməlidir.

Moldovalı ombudsman müəllim və şagirdlərin suallarını cavablandırıb.

Sonda pedaqoji şuranın qərarı ilə moldovalı ombudsmana “Məktəbin fəxri müəllimi” adı verildiyi də bildirilib.

Tədbir mədəni proqramla davam etdirilib. Azərbaycan və Moldova milli mahnıları oxunub, rəqslər ifa olunub.